# Azərbaycan nümayəndə heyəti V Sankt-Peterburq beynəlxalq mədəniyyət forumunda iştirak edir

**Dekabrın 1-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində görkəmli rus bəstəkarı Sergey Prokofyevin 125 illiyinə həsr olunmuş V Sankt-Peterburq beynəlxalq mədəniyyət forumunun rəsmi açılış mərasimi keçirilib. Tədbirdə ölkəmizi mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.**



Nazirlikdən AzərTAc-a bildirilib ki, dekabrın 3-dək davam edəcək forum çərçivəsində plenar iclaslar, "dəyirmi masa"lar və kino, teatr, musiqi, rəqs, kütləvi kommunikasiya kimi istiqamətlər üzrə master-klasların keçirilməsi planlaşdırılır. Mədəni proqram çərçivəsində forum iştirakçılarının Ermitaj, "Rus muzeyi", Mariinski və Mixaylovski teatrları, Boris Eyfmanın Balet Teatrı ilə tanışlıq, S.Prokofyevin 125 illiyinə həsr olunmuş qala-konsert və digər tədbirlərdə iştirakı nəzərdə tutulur.

Forumda mədəniyyət nazirləri, diplomatik missiyaların başçıları, Rusiyanın aparıcı mədəniyyət müəssisələrinin rəhbərləri, incəsənət xadimləri, beynəlxalq mədəni əməkdaşlıq sahəsində mütəxəssislər iştirak edir.

Aydın yol.-2016.-3 dekabr.-S.3.